Non official translation / Qeyri-rəsmi tərcümə

# AVROPA MƏHKƏMƏSİNİN QƏRARLARINDAN SONRA ÖLKƏDAXİLİ MƏHKƏMƏ İCRAATLARININ YENİLƏNMƏSİ



AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

**TEMATİK BÜLLETEN**

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Non official translation / Qeyri-rəsmi tərcümə

**Oktyabr 2022-ci il**

# AVROPA MƏHKƏMƏSİNİN QƏRARLARINDAN SONRA ÖLKƏDAXİLİ MƏHKƏMƏ İCRAATLARININ YENİLƏNMƏSİ

***1. İcraatların bərpa olunması ilə bağlı ümumi prinsiplərin icmalı .................................3***
***2. Dövlətlərin praktikasından nümunələr.........................................................................6***
2.1. Maddə 3 (İşgəncələrin qadağan olunması) ........................................................................ 6
2.2. Maddə 5 (Azadlıq və toxunulmazlıq hüququ) ..................................................................... 6
2.3. Maddə 6 (Ədalətli məhkəmə araşdırması hüququ) ............................................................. 6
2.4. Maddə 7 (Qanunsuz cəzalandırılmamaq) ........................................................................... 7
2.5. Maddə 8 (Şəxsi həyata və ailə həyatına hörmət hüququ) .................................................... 8
2.6. Maddə 9 (Fikir, vicdan və din azadlığı) ............................................................................... 9
2.7. Maddə 10 (Fikri ifadə etmək azadlığı) ................................................................................ 9
2.8. Maddə 11 (Yığıncaqlar və birləşmək azadlığı) ................................................................... 10
2.9. Maddə 14 (Ayrı-seçkiliyin qadağan olunması) ................................................................... 11
2.10. 1 saylı Protokolun 1-ci maddəsi (Mülkiyyətin müdafiəsi) .................................................... 11
***İşlərin siyahısı .........................................................................................................13***

Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının Konvensiyanın iştirakçısı olan dövlətlər tərəfindən tam, səmərəli və operativ icrası Avropada ümumilikdə insan hüquqlarına riayət edilməsinə və onların həyata keçirilməsinə böyük töhfə verir.

Məhkəmənin işdə pozuntu aşkar etdiyi barədə qərarında cavabdeh dövlətin üzərinə öhdəlik qoyulur ki, pozuntuya son qoysun və onun nəticələrini elə aradan qaldırsın ki, pozuntuya qədərki vəziyyət mümkün qədər bərpa edilsin. Bu, Nazirlər Komiəsi tərəfindən də tez-tez tətbiq olunan restitutio in integrum (pozuntuya qədərki vəziyyətin bərpası) prinsipidir. Zərərçəkmiş tərəf üçün restitutio in integrum prinsipini təmin etmək üçün milli hüquq sistemlərində imkanların təkmilləşdirilməsi zərurəti getdikcə özünü daha aydın büruzə verir. Baxmayaraq ki Konvensiyada dövlətlərin üzərinə öz milli qanunvericiliklərində işlərə yenidən baxılmasını və ya icraatın bərpa olunmasını nəzərdə tutmaq öhdəliyini qoyan heç bir müddəa yoxdur, pozuntuya qədərki vəziyyətin bərpasına nail olmaq üçün bu cür imkanların mövcudluğunun mühüm və hətta bəzi hallarda yeganə vasitə olduğu öz təsdiqini tapmışdır.

Hazırkı bülletendə ölkədaxili məhkəmə araşdırmalarının yenidən başlanması ilə bağlı ümumi prinsiplərin icmalı, habelə Konvensiyanın müxtəlif maddələri üzrə Avropa Məhkəməsinin qərarlarının icrası kontekstində Nazirlər Komitəsi tərəfindən araşdırılan müvafiq dövlətlərin praktikasının nümunələri təqdim olunur.

*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur. Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.*

# 1. İcraatların bərpa olunması ilə bağlı ümumi prinsiplərin icmalı

Nazirlər Komitəsinin (NK) *R(2000)2 saylı Tövsiyəsinə* əsasən, xüsusilə Avropa Məhkəməsinin qərarından sonra zərərçəkmiş tərəf sözügedən ölkədaxili qərarın mənfi nəticələrindən çox ciddi zərər çəkməyə davam edərsə və bu nəticələri ədalətli təzminat vasitəsilə qənaətbəxş şəkildə aradan qaldırmaq mümkün olmazsa və bu nəticələri aradan qaldırmaq işə yenidən baxmaqdan və ya icraatı bərpa etməkdən savayı başqa yolla mümkün olmazsa, icraatın bərpa olunması (işin yenidən açılması da daxil olmaqla) milli səviyyədə mümkün olmalıdır. Eyni zamanda yerinə yetirilməli olan digər şərt ondan ibarətdir ki, Avropa Məhkəməsi öz qərarında bu qənaətə gəlməlidir ki: a. mübahisələndirilən ölkədaxili qərar mahiyyəti üzrə Konvensiyaya ziddir və yaxud b. aşkar edilmiş pozuntu prosessual səhvlərə və ya çatışmazlıqlara əsaslanır ki, bu da barəsində şikayət edilən ölkədaxili icraatın nəticəsi ilə bağlı ciddi şübhə yaradır.[1] Belə şübhələrin mövcudluğu məsələsinə gəlincə, NK dövlət orqanlarının qənaətləri ilə razılaşa bilər, bu şərtlə ki, onlar yetərincə əsaslandırılmış olsun.[2]

Beləliklə, icraatın bərpa olunması xüsusən də cinayət hüququ sahəsində restitutio in integrum prinsipinə nail olmaq üçün ən səmərəli, hətta yeganə vasitə ola bilər və cinayət işlərinin yenidən açılması imkanı indi demək olar ki, bütün üzv dövlətlərdə mövcuddur[3] və bəzi hallarda yuxarı instansiya məhkəməsinin xüsusi qərarından sonra mümkün olur.[4]

Nəticə etibarı ilə, praktikada icraatın bərpa olunması cinayət işlərində adi fərdi tədbirə çevrilmişdir: icraatın bərpa olunması üçün Konvensiyanın pozulmasının mənfi nəticələrinin mütləq çox ciddi olması vacib deyil.[5] Eyni zamanda, icraatın bərpa olunmasınının ərizəçinin vəziyyətini daha da pisləşdirə biləcəyi riskini nəzərə alaraq, hər bir konkret halda icraatın bərpa olunmasına getmək də lazım deyil ("non reformatio in peius" prinsipi – qərardan şikayət verən tərəfin vəziyyəti şikayətə qədərki vəziyyətinə nisbətən pisləşməməlidir).[6]

Hətta Məhkəməyə heç vaxt ərizə ilə müraciət etməmiş şəxslər də Konvensiyanın pozulması ilə nəticələnən hadisələrdən, xüsusən də Məhkəmənin pilot qərarlarında aşkar edilənlərə oxşar hadisələrdən əziyyət çəkmişlərsə, işlərinə yenidən baxıla bilər.[7] Eyni zamanda, Məhkəmənin pozuntunu müəyyən etdiyi işlərə bənzər bütün ölkədaxili məhkəmə işlərinin yenidən açılmasına dair heç bir öhdəlik mövcud deyil. Həqiqətən də, müəyyən struktur çatışmazlığının Konvensiyanın çoxsaylı pozuntularına gətirib çıxardığı "kütləvi hallarda işlərin yenidən açılması" istisna olmaqla, icraatın bərpa olunmasınının real olub-olmaması barədə qərar vermək məsələsini, prinsipcə, ən yaxşısı, müvafiq dövlətin öhdəsinə buraxmaqdır.[8]

---

1 *Məhkəmənin qərarlarından sonra ölkədaxili səviyyədə müəyyən işlərə yenidən baxılması və ya icraatın bərpa olunması haqqında Nazirlər Komitəsinin üzv dövlətlərə R (2000)2 saylı Tövsiyəsi*, 19 yanvar 2000-ci ildə qəbul edilib.

2 *TÜR / Öcalan (46221/99), Yekun qərar: 12/06/2003, Yekun qətnamə: CM/ResDH(2007)1* (pozuntunun ölkədaxili məhkəmənin gəldiyi nəticəyə təsirinin qiymətləndirilməsi); *EST / Martin (35985/09), Yekun qərar: 07/10/2013, Yekun qətnamə: CM/ResDH(2016)308* (ölkədaxili məhkəmə tərəfindən qiymətləndirmə); *TÜR / Göç (36590/97) , Yekun qərar: 11/07/2002, Yekun qətnamə: CM/Res/DH(2011)307* (dövlət nümayəndəsi tərəfindən qiymətləndirmə).

3 *PRT / Moreira Ferreira* (19867/12), *Yekun qərar:* 11/07/2017, bəndlər 39, 48.

4 *İTA / Bracci (36822/02), Yekun qərar: 15/02/2006, Yekun qətnamə: CM/ResDH(2014)102* (cinayət işlərinin icraatının bərpa olunmasına icazə verilməsi üçün Konstitusiya Məhkəməsi tərəfindən qanunun şərhi).

5 *RUM / Bucur və Toma (40238/02), Yekun qərar:* 08/04/2013, 2016-cı ilin dekabrında NK tərəfindən qəbul edilmiş qərara dair qeydlər, CM/Notes/1273/H46-21 (bu işdə ölkədaxili məhkəmə müəyyən etdi ki, ərizəçi pozuntunun aradan qaldırılması üçün tam bəraət alıb, amma bu, qərarın onun üçün bütün mənfi nəticələrini hələ də aradan qaldırmayıb, buna görə də işin bərpa olunmasına qərar verildi).

[6] *AVT / Pfeifer (12556/03), Yekun qərar: 15/02/2008, Yekun qətnamə: CM/ResDH(2018)322.*

[7] *Daxili hüquqi müdafiə vasitələrinin təkmilləşdirilməsi haqqında Nazirlər Komitəsinin üzv dövlətlərə Rec(2004)6 saylı Tövsiyəsinə Əlavə, b. 17. İSP / Del Río Prada (42750/09), Yekun qərar:21/10/2013, Yekun qətnamə: CM/ResDH(2014)107* (qüsurlu qanunun təsirinə məruz qalan, heç vaxt Məhkəməyə müraciət etməyən şəxslərin azad edilməsi).

[8] *R (2000)2 saylı Tövsiyəyə dair İzahedici Memorandum, b. 14, İSL / Guðmundur Andri Ástráðsson (26374/18), Yekun qərar: 30/11/2021, § 314, Yekun qətnamə: CM/ResDH(2022)48;*

Məhkəmə bəzən icraatın bərpa olunmasının tələb olunduğunu bildirsə də, bu barədə birbaşa qərar vermək onun yurisdiksiyasına aid deyil;[9] buna görə də belə göstərişlər məcburi qüvvəyə malik deyil.[10] Digər tərəfdən, belə göstərişlərin olmaması dövlət orqanlarını zərurət yarandıqda işə yenidən baxılması və ya icraatın bərpa olunması barədə vəsatəti qəbul etmək öhdəliyindən azad etmir; hətta Məhkəmənin heç bir göstərişi olmadığı halda bir çox işlərin icraatı bərpa olunub.[11]

NK-nın təcrübəsi göstərir ki, ərizəçilər cinayət işi üzrə məhkəmə icraatının bərpa olunmasını tələb etmək hüququna malik olmalıdırlar; yalnız istisna hallarda NK ərizəçinin deyil, prokuror kimi bir dövlət orqanının bu hüquqa malik ola biləcəyi sistemi qəbul edə bilər.[12] Əgər bu hüquqa malik olan ərizəçi buna baxmayaraq icraatın bərpa olunmasını tələb etməyibsə, NK işi bağlaya bilər.[13] Bəzən ərizəçinin icraatın bərpa olunmasını tələb edib-etmədiyinə dair heç bir məlumat olmadıqda, milli qanunvericilikdə sadəcə bunu tələb etmək imkanı mövcuddursa, bu, NK-nın işi bağlaması üçün kifayətdir, bu şərtlə ki, sərəncamındakı məlumatlar əsasında NK ərizəçinin pozuntunun mənfi nəticələrindən əziyyət çəkməyə davam etdiyi qənaətinə gəlmiş olmasın.[14] Amma belə nəticələrin olduğu açıq-aydın bəlli olarsa, hakimiyyət orqanları öz təşəbbüsləri ilə işin icraatını bərpa edə bilərlər.[15]

Əgər icraatın bərpa olunması Konvensiyanın mühüm pozuntusu ilə əlaqədardırsa, adətən işi bağlamazdan əvvəl NK cinayət işinin bərpa olunmuş icraatının nəticəsini gözləyir, çünki belə hallarda bəraət qərarı adətən Konvensiyaya uyğun olan yeganə nəticədir.[16] Bərpa olunmuş icraat başa çatanadək pozuntu lazımi qaydada araşdırıldığı hallarda isə gözləməyə ehtiyac qalmır.[17] İş ərizəçinin azadlıqdan məhrum edilməsi barədə çıxarılmış məhkəmə hökmünün düzgünlüyünə şübhə yaradan pozuntu ilə əlaqədardırsa, cinayət işinin bərpa olunmuş icraatının nəticəsi məlum olana qədər ərizəçi azad edilməlidir (əlbəttə ki, ərizəçini həbsdə saxlamaq üçün başqa qanuni əsaslar yoxdursa).[18]

---

[9] *PRT / Moreira Ferreira (19867/12), Yekun qərar: 11/07/2017, b. 49.*

[10] *SVN / Gaspari (21055/03), Yekun qərar: 10/12/2009, § 80, Yekun qətnamə:* CM/ResDH(2018)401 (bu işdə Məhkəmənin göstərişlərinə baxmayaraq işin icraatı bərpa olunmadan iş bağlandı, çünki Sloveniyada mülki işlərin icraatının bərpası mümkün deyildi, amma alternativlər mövcud idi).

[11] *İSVR / Perinçek (46669/99), Yekun qərar: 15/10/2015, Yekun qətnamə:* CM/ResDH(2016)326 *və s.*

[12] *BOL / Petyo Popov (75022/01), Yekun qərar: 22/04/2009, Yekun qətnamə:* CM/ResDH(2017)363 (bu iş prokurorun icraatı bərpa etməkdən imtina etməsi ilə bağlı idi, çünki prokurorun fikrincə, icraatın bərpası ərizəçinin vəziyyətini pisləşdirə bilərdi).

[13] *PRT / Paixão Moreira Sá Fernandes (78108/14), Yekun qərar: 28/05/2020, Yekun qətnamə:* CM/ResDH(2022)110 (bu iş ərizəçinin 6-cı maddə pozulmaqla məhkum edilməsinə aid idi; dövlət orqanları ərizəçinin icraatın bərpa olunmasını tələb etmədiyini və bu məhkumluğun cinayət reyestrində qeydə alınmadığını vurğuladıqdan sonra iş bağlandı); *TÜR / Ahmet Arslan və başqaları (41135/98), Yekun qərar: 04/10/2010, Yekun qətnamə:* Cm/ResDH(2016)330 (bu iş ərizəçinin 9-cu maddə pozulmaqla məhkum edilməsinə aid idi; dövlət orqanları ərizəçinin icraatın bərpa olunmasını tələb etmədiyini bildirdikdən sonra iş bağlandı, məhkumluq barədə qeyd pozuntunun mənfi nəticələri olmadan silindi); *PRT / L.P. və Carvalho (24845/13), Yekun qərar: 08/10/2019, Yekun qətnamə:* CM/ResDH(2022)41 (bu iş 10-cu maddə pozulmaqla məhkum edilmə ilə bağlı idi; dövlət orqanları bir ərizəçinin icraatın bərpa olunmasını tələb etdiyini və bəraət aldığını bildirdikdən sonra iş bağlandı, eyni vəziyyətdə olan digər ərizəçi isə icraatın bərpa olunmasını tələb etmədi).

[14] *FRA / Eon (26118/10), Yekun qərar: 14/06/2013, Yekun qətnamə:* CM/REsDH(2014)10 (bu iş 10-cu maddə pozulmaqla məhkum edilmə ilə əlaqədar idi, amma hökm sadəcə xəbərdarlıq xarakteri daşıyırdı; dövlət orqanları ərizəçinin icraatın bərpası üçün müraciət etmək imkanına malik olduğunu bildirdikdən sonra iş bağlandı); *FİN / M.P. (36487/12), Yekun qərar: 15/03/2017, Yekun qətnamə:* CM/ResDH(2018)431 (bu iş 10-cu maddə pozulmaqla qəbul edilmiş başqa bir ittiham hökmü ilə əlaqədar idi; dövlət orqanları ərizəçinin icraatın bərpa olunmasını tələb edə biləcəyini və məhkumluq barədə qeydin onun cinayət dosyesinə daxil edilmədiyini bildirdikdən sonra iş bağlandı).

[15] *MAC / Vajnai (33629/06), Yekun qərar: 08/07/2008, Yekun qətnamə:* CM/ResDH(2019)346 (bu iş 10-cu maddə pozulmaqla məhkum edilmə ilə bağlı idi; prokuror öz təşəbbüsü ilə icraatın bərpa olunması üçün vəsatət verdikdən sonra iş bağlandı, son nəticədə ölkədaxili məhkəmələr icraatı bərpa edərək ərizəçilərə bəraət verdilər).

[16] *İSVR / Perinçek (27510/08), Yekun qərar: 15/10/2015, Yekun qətnamə:* CM/ResDH(2016)326 (10-cu maddə pozulmaqla məhkum edilmiş ərizəçi bərpa olunmuş icraatda bəraət aldıqdan sonra bu iş bağlandı).

[17] *MKD / Mitrov (45959/09), Yekun qərar: 02/09/2016, Yekun qətnamə:* CM/ResDH(2017)146 (iş bərpa olunmuş məhkəmə icraatı hələ başa çatmadan, amma qərəzsiz məhkəmə tərəfindən işə baxılması başlandıqdan sonra bağlandı).

[18] *RUM / Constantin və Stoian* (23782/06), *Yekun qərar: 29/12/2009, Yekun qətnamə:* CM/ResDH(2013)40. *LİT / Birutis və başqaları (47698/99), Yekun qərar: 28/06/2002, Yekun qətnamə:* ResDH(2004)45 (bu işdə ərizəçilərin heç də hamısı azadlığa buraxılmadı, amma bu, digər ittiham hökmləri ilə əlaqədar idi).

Konkret olaraq özəl tərəflər/fiziki şəxslər arasında mübahisələrə aid mülki işlərə gəldikdə, hüquqi müəyyənlik mülahizələri çox vaxt icraatın bərpa olunmasınının qarşısını alır, çünki söhbət vicdanlı üçüncü tərəflərin hüquqlarından gedir.[19] İcraatın bərpa olunması ərizəçinin iradəsindən asılıdır, belə ki, hətta o, icraatın bərpa olunması barədə vəsatətini geri götürmək imkanına malik olmalıdır.[20] Faktiki olaraq, bəzi ölkələrdə mülki işlərin icraatının bərpa olunması hələ də mümkün deyil,[21] çünki zərərin alternativ yolla, məsələn, adekvat ədalətli təzminat vasitəsilə qənaətbəxş şəkildə ödənilə biləcəyi hesab edilir.[22]

Həm mülki, həm də cinayət işlərinin icraatının bərpa olunmasının alternativləri çox vaxt məqbul sayıla bilər: icraatın bərpa olunması sadəcə olaraq Məhkəmənin müəyyən qərarlarının tam və lazımi şəkildə icrası üçün sadəcə daha bir vasitədir (amma həm də mühüm vasitədir). Dövlət ərizəçilər üçün *restitutio in integrum* prinsipinə nail olmaq üçün başqa vasitələr seçməkdə sərbəst olaraq qalır, bu şərtlə ki, həmin vasitələr operativ, səmərəli və Məhkəmənin qənaətlərinə uyğun olsun, bəzi hallarda isə dövlət başqa vasitələr seçməyə borcludur.[23] Belə alternativlərə kompensasiya[24] və ya əfv qərarı[25] aid edilə bilər.

---

19 Məsələn, əmlakın əvvəlki sahibinin (ərizəçinin) Konvensiya hüquqlarının pozulduğunu qabaqcadan görə bilməyən əmlakın hazırkı sahibi işin icraatının bərpa olunmasından zərər çəkməməlidir. *NOR / Walston (37372/97), Yekun qərar: 03/12/2003, Yekun qətnamə: CM/ResDH/(2008)55*.

20 *NOR / TV Vest As və Rogaland Pensjonistparti (21132/05), Yekun qərar: 11/03/2009, Yekun qətnamə: CM/ResDH(2011)234*.

21 Məsələn, Avstriya, Belçika, Yunanıstan, Fransa (vətəndaşlıq vəziyyəti aktları məsələlərindən başqa), İrlandiya, Malta, Polşa və Sloveniyada mülki iş üzrə məhkəmə icraatının bərpa olunması hüququ mövcud deyil.

22 *YUN / Moustakidis (58999/13), Yekun qərar: 27/01/2020, Yekun qətnamə: CM/Res DH(2022)97*; *SVN / Gaspari (21055/03)*23 *İSVR / Verein gegen Tierfabriken (VgT) (№ 2) (32772/02), b. 90, Yekun qərar: 30/06/2009, Yekun qətnamə: CM/ResDH(2010)113*.

24 *SVN / Ališić və başqaları (60642/08), Yekun qərar: 16/07/2014, Yekun qətnamə: CM/ResDH(2018)111*.

25 *ROM / Dalban və 4 digər iş (28114/95), Yekun qərar: 28/09/1999, Yekun qətnamə: CM/ResDH(2011)73*.

# 2. Dövlətlərin praktikasından nümunələr

## 2.1. Maddə 3 (İşgəncələrin qadağan olunması)

Sığınacaq axtaran şəxsin Əfqanıstana deportasiya olunacağı təqdirdə qəddar rəftar riski ilə üzləşəcəyinə aid olan bu işdə İsveçrə Federal İnzibati Məhkəməsi tərəfindən işin halları diqqətlə və hərtərəfli araşdırılmamışdı. Bu məhkəmə işin icraatını bərpa etdi və ərizəçinin xeyrinə qərar verdi, işi Miqrasiya İşləri üzrə Dövlət Katibliyinə (Secrétariat d'État aux migrations) göndərdi, sonra həmin Katiblik ərizəçini qaçqın kimi tanıdı və ona İsveçrədə müvəqqəti yaşayış icazəsi verdi.

***İSVR / A.A. (32218/17)***

***Yekun qərar: 05/02/2020***

**Yekun qətnamə: CM/ResDH(2021)21**

## 2.2. Maddə 5 (Azadlıq və toxunulmazlıq hüququ)

Məhkəməyə qədər əsassız olaraq uzun müddət həbsdə saxlanma ilə bağlı iş üzrə (maddə 5, 3-cü bənd) bərpa olunmuş icraatda daxili məhkəmələr müvafiq həbs qərarlarını ləğv edərək ərizəçiyə daxili qanunvericiliyə uyğun olaraq əlavə kompensasiya tələb etmək imkanı verdilər.

***RUS / Bykov (4378/02)***

***Yekun qərar: 10/03/2009***

**İcranın vəziyyəti**

Qeyri-qanuni həbslə bağlı işdə (maddə 5, 1-ci bənd) daxili məhkəmələr belə həbsə görə kompensasiya ödənilməsi üçün icraatı bərpa etdilər.

***SER / Mitrovic (52142/12)***

***Yekun qərar: 21/06/2017***

**Yekun qətnamə: CM/ResDH(2020)78**

## 2.3. Maddə 6 (Ədalətli məhkəmə araşdırması hüququ)

Bu iş digər təqsirləndirilən şəxs tərəfindən verilən, birinci instansiya məhkəməsindəki araşdırmadan əvvəl məcburiyyət tətbiq etməklə alınan və həqiqətə uyğunluğu və dəqiqliyi yoxlanılmayan ifadə əsasında məhkum edilmiş ərizəçi ilə əlaqədar idi. Bərpa olunmuş icraatda məhkəmə sübut olmadığı üçün ərizəçiyə bəraət hökmü çıxardı.

***XOR / Erkapić (51198/08)***

***Yekun qərar: 25/07/2013***

**Yekun qətnamə: CM/ResDH(2021)148**

İşin mahiyyəti üzrə araşdırılmaması ilə əlaqədar olan işdə daxili məhkəmələr işə bütünlüklə mahiyyəti üzrə baxılması üçün icraatı bərpa etdilər.

***XOR / Lesjak (25904/06)***

***Yekun qərar: 18/05/2010***

**Yekun qətnamə: CM/ResDH(2012)12**

| | |
|---|---|
| Məhkəmə prosesində ərizəçilərin iştirakı ilə və ictimaiyyətin müşahidəsi altında çox mühüm sübutların adekvat şəkildə təqdim edilməməsi və müzakirə olunmaması səbəbindən pozuntunun aşkar edildiyi iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr ərizəçilərə bəraət verdilər, çünki onların əleyhinə kifayət qədər sübut yox idi. | ***İSP / Barberà, Messegué və Jabardo (10590/83)***<br>***Yekun qərar: 06/12/1988***<br>**Yekun qətnamə: CM/ResDH (1994)84** |
| Yuxarı məhkəmənin hakiminin ona hansı qərarın qəbul edilməli olduğu barədə göstəriş verəcəyi ilə bağlı obyektiv ehtiyatlanma səbəbindən daxili məhkəmənin qərəzsiz sayılmadığı iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr bu göstərişləri nəzərə almadan işə yenidən baxdılar. | ***LİT / Daktaras (42095/98)***<br>***Yekun qərar: 17/01/2001***<br>**Yekun qətnamə: CM/ResDH(2004)43** |
| Həm birinci, həm də apellyasiya instansiyalarında eyni hakimlər iştirak etdiyinə görə məhkəmənin qərəzsiz sayılmadığı iş üzrə icraat bərpa olundu və işə birinci və ya apellyasiya instansiyasındakı icraatda iştirak etmiş hakimlərdən deyil, fərqli hakimlərdən ibarət tərkibdə yenidən baxıldı. | ***MLT / San Leonard Band Club (77562/01)***<br>***Yekun qərar: 297/10/2004***<br>**Yekun qətnamə: CM/ResDH(2013)146** |
| Narkotik vasitələrlə bağlı iddia edilən cinayətlərin törədilməsi ilə əlaqədar cinayət prosesi çərçivəsində daxili məhkəmələr tərəfindən ərizəçilərin onlara qarşı "tələ qurulması" ilə bağlı iddialarının lazımi qaydada araşdırılmadığı iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr ərizəçilərin iddialarını araşdırdılar. | ***RUM / Constantin və Stoian (23782/06)***<br>***Yekun qərar: 29/12/2009***<br>**Yekun qətnamə: CM/ResDH(2013)40** |
| Daxili məhkəmələr tərəfindən şahidlərin dinlənilmədiyi işlər üzrə bərpa olunmuş icraatlarda daxili məhkəmələr şahidləri çağırıb dinlədilər. | ***RUM / Reiner və başqaları (1505/02)***<br>***Yekun qərar: 27/12/2007***<br>**Yekun qətnamə: CM/ResDH(2013)41** |

## 2.4. Maddə 7 (Qanunsuz cəzalandırılmamaq)

| | |
|---|---|
| Cinayətin törədilməsi zamanı tətbiq ediləndən daha ağır cinayət qanununun tətbiq edildiyi işlər üzrə bərpa olunmuş icraatlarda daxili məhkəmələr daha yüngül cinayət qanununu tətbiq etdilər. | ***BVH / Maktouf və Damjanović (2312/08)***<br>***Yekun qərar: 18/07/2013***<br>**Yekun qətnamə: CM/ResDH(2017)180** |

Məhkəmələr tərəfindən təhlükəsizlik səbəbi ilə təyin edilmiş həbs qətimkan tədbirinin qanunvericilikdə əsası olmadığı halda uzadıldığı işlərdə məhkəmələr ərizəçilərin azadlığa buraxılması (və ya qanuni əsaslarla, yəni psixi xəstəlik səbəbindən yenidən təcridxanaya salınması) haqqında qərar qəbul etdilər.

*ALM / M. qrupu (19359/04)*

*Yekun qərar: 10/05/2010*

**Yekun qətnamə: CM/ResDH(2014)290**

---

Ərizəçilərin təqsirləndirildiyi əməllərin həmin vaxt qüvvədə olan milli qanunvericiliyə əsasən cinayət sayılmaması ilə əlaqədar olaraq pozuntuların baş verdiyi işlər üzrə bərpa olunmuş icraatlarda daxili məhkəmələr ərizəçilər barəsindəki ittiham hökmlərini ləğv etdilər.

*RUM / Dragotoniu və Militaru-Pidhorni (77193/01)*

*Yekun qərar: 24/08/2007*

**Yekun qətnamə: CM/ResDH(2011)250**

---

## 2.5. Maddə 8 (Şəxsi həyata və ailə həyatına hörmət hüququ)

Birinci kursa qəbul proseduru zamanı yol verilmiş inzibati xətalara görə ərizəçilərin stomatologiya üzrə dövlət ixtisas dərəcələrinin ləğv edilməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda məhkəmə ərizəçilərin diplomlarının ləğvi barədə universitetin qərarını ləğv etdi. 2021-ci ilin sentyabrında Səhiyyə Nazirliyi bütün ərizəçilər üçün stomatologiya üzrə bakalavr dərəcəsi sertifikatlarını yenidən təsdiq etdi.

*RUM / Convertito və başqaları (30547/14)*

*Yekun qərar: 03/07/2020*

**Yekun qətnamə: CM/ResDH(2022)111**

---

Ərizəçilərin qeyri-qanuni və ya qeyri-mütənasib şəkildə fəaliyyət qabiliyyətindən məhrum edildiyi işlər üzrə bərpa olunmuş icraatlarda daxili məhkəmələr ərizəçilərin tam fəaliyyət qabiliyyətini bərpa etdilər.

*RUS / Rakevich grupu (58973/00)*

*Yekun qərar: 24/03/2004*

**Yekun qətnamə: CM/ResDH(2020)333**

---

Ərizəçilərin barələrindəki cinayət işi ilə əlaqədar olaraq polis orqanlarından azad edildiyi, amma sonradan bəraət aldığı iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr onları vəzifələrinə bərpa etdilər.

*SER / Milojević (43519/07)*

*Yekun qərar: 12/04/2016*

**Yekun qətnamə: CM/ResDH(2018)93**

---

Ərizəçinin ata adının dəyişdirilməsi tələbinin rədd edilməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı idarəsinə ərizəçinin yeni ata adını qeydə almaq barədə göstəriş verdilər.

*UKR / Garnaga (20390/07)*

*Yekun qərar: 16/08/2013*

**Yekun qətnamə: CM/ResDH(2020)355**

---

İstiqaməti dəyişdirilərək ərizəçinin evinin yanından çəkilmiş avtomobil yolunun yaratdığı səs-küy, vibrasiya, havanın və torpağın çirklənməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda məhkəmə ərizəçinin xeyrinə qərar çıxardı və Avropa Məhkəməsinin qərarına əlavə olaraq, ona mənəvi ziyana görə kompensasiya təyin etdi (avtomobil yolu artıq istismar olunmur).

*UKR / Grimkovskaya (38182/03)*

*Yekun qərar: 21/10/2011*

**Yekun qətnamə: CM/ResDH(2020)88**

| | |
|---|---|
| Üç uşağın kor valideynlərinin himayəsindən alınaraq müxtəlif müəssisələrə yerləşdirilməsi (və onların valideynləri və bacı-qardaşları ilə müntəzəm təmaslarının qarşısının alınması) ilə bağlı iş üzrə bərpa olunmuş icraatda uşaqların analarının yanına qayıtmasına icazə verildi. | *UKR / Saviny (39948/06)*<br>***Yekun qərar: 18/03/2009***<br>**Yekun qətnamə: CM/ResDH(2018)39** |

## 2.6. Maddə 9 (Fikir, vicdan və din azadlığı)

| | |
|---|---|
| "Yəhva şahidləri" dini icmasının üzvünün dini etiqadını həyata keçirməsinə qoyulan sərt və ya hətta qadağanedici şərtlərdən birinə əməl etmədiyinə görə məhkum edilməsi ilə bağlı Avropa Məhkəməsi tərəfindən Konvensiyaya zidd hesab edilən iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr ərizəçiyə bəraət verdilər. | *YUN / Manoussakis və başqaları (18748/91)*<br>***Yekun qərar: 26/09/1996***<br>**Yekun qətnamə: CM/ResDH(2005)87** |
| Hər ikisi Yunanıstanın müsəlman icmasının bir qismi tərəfindən müfti seçilmiş və məhkum olunduqlarına görə başqaları ilə birlikdə və açıq şəkildə ibadəti və dini təlimləri icra edə bilməyən ərizəçilərin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı iş üzrə icraat bərpa olundu və ittiham hökmləri ləğv edildi. | *YUN / Serif (38178/97)*<br>***Yekun qərar: 14/03/2000***<br>*YUN / Agga №2 (50776/99)*<br>***Yekun qərar: 17/01/2003***<br>**Yekun qətnamə: CM/ResDH(2005)88** |

## 2.7. Maddə 10 (Fikri ifadə etmək azadlığı)

| | |
|---|---|
| Dövlət şirkətinin məhsullarının keyfiyyətini aşağılamaq məqsədilə deyil, onların mənfi cəhətləri barədə məlumatlılıq səviyyəsini artırmaq məqsədilə dövlət şirkəti tərəfindən istehsal olunan şərabı tənqid etdiyinə görə jurnalistin məhkum edilməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda mübahisələndirilən hökm ləğv edildi və ərizəçi bəraət aldı. | *MAC / Uj (23954/10)*<br>***Yekun qərar: 19/10/2011***<br>**Yekun qətnamə: CM/ResDH(2022)70** |
| Mətbuat konfransında digər məmurları sərt tənqid etdiyinə görə məmurun məhkum edilməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmə məmura bəraət verdi. | *MON / Sabanovic (5995/06)*<br>***Yekun qərar: 31/08/2011***<br>**Yekun qətnamə: CM/ResDH(2016)44** |

Jurnalistin böhtana görə məhkum edilməsi ilə bağlı işdə səlahiyyətli məhkəmə tərəfindən ona ifadələrini təsdiq edən sübutlar gətirməsi üçün lazımi imkanın verilməməsi ilə əlaqədar Baş prokurorun verdiyi fövqəladə şikayətdən sonra bərpa olunmuş icraatda ərizəçiyə (həmin vaxt o artıq vəfat etmişdi) Ali Məhkəmə tərəfindən bəraət verildi.

***RUM / Dalban və 4 digər iş (28114/95)***

***Yekun qərar: 28/09/1999***

**Yekun qətnamə: CM/ResDH(2011)73**

---

Məhkəmələr tərəfindən təhlükəsizlik səbəbi ilə təyin edilmiş həbs qətimkan tədbirinin qanunvericilikdə əsası olmadığı halda uzadıldığı işlərdə məhkəmələr ərizəçilərin azadlığa buraxılması (və ya qanuni əsaslarla, yəni psixi xəstəlik səbəbindən yenidən təcridxanaya salınması) haqqında qərar qəbul etdilər.

***İSVR / Verein gegen Tierfabriken (VgT) (№ 2) (32772/02), b. 90***

***Yekun qərar: 30/06/2009***

**Yekun qətnamə: CM/ResDH(2010)113**

---

## 2.8. Maddə 11 (Yığıncaqlar və birləşmək azadlığı)

Ərizəçi birliyin əsassız olaraq ləğvi ilə bağlı işdə ərizəçinin birliklərin reyestrindən çıxarılması və fəaliyyətinə xitam verilməsi ilə bağlı bütün ölkədaxili icraatlar bərpa olundu və mübahisələndirilən qərarlar ləğv edildi.

***XOR / Xorvatiya Qolf Federasiyası (66994/14)***

***Yekun qərar: 17/03/2021***

**Yekun qətnamə: CM/ResDH (2021)355**

---

Birliyin əsassız olaraq ləğvi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda ərizəçi birlik qeydiyyata alındı.

***MKD / Radko & Paunkovski Vətəndaş Assosiasiyası (74651/01)***

***Yekun qərar: 15/04/2009***

**Yekun qətnamə: CM/ResDH(2017)293**

---

Müxalifətçi siyasi partiyanın buraxılması kimi qeyri-mütənasib qərarın qəbul edildiyi iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr bu partiyanın buraxılması barədə qərarı ləğv etdilər.

***RUS / Rusiya Respublikaçılar Partiyası (12976/07)***

***Yekun qərar: 15/09/2011***

**Yekun qətnamə: CM/ResDH(2017)354**

## 2.9. Maddə 14 (Ayrı-seçkiliyin qadağan olunması)

Ərizəçinin azadlıqdan məhrum edilməsi barədə hökmün icrasını ərizəçi qaraçı mənşəli olduğuna görə təxirə salmaqdan imtina edilməsi ilə bağlı iş üzrə (6-cı maddə ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddənin pozulması) bərpa olunmuş icraatda daxili məhkəmələr azadlıqdan məhrumetmə cəzasının icrasını dayandırdılar.

***BOL / Paraskeva Todorova (37193/07)***

***Yekun qərar: 25/06/2010***

**Yekun qətnamə: CM/ResDH(2016)156**

---

Uşaqları doğulduqdan sonra natamam iş günü rejimində işləmək istəyən qadınlara müavinətlərin hesablanmasında ayrı-seçkilik xarakterli metodun tətbiqi ilə bağlı iş üzrə (8-ci maddə ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddənin pozulması) bərpa olunmuş icraatda daxili məhkəmələr Avropa Məhkəməsinin narahatlığını nəzərə alaraq, ərizəçilərə retrospektiv qaydada 12 ildən artıq müddət üçün əlillik müavinətinin 50%-ini təyin etdilər.

***İSVR / Di Trizio (7186/09)***

***Yekun qərar: 02/02/2016***

**Yekun qətnamə: CM/ResDH(2017)128**

---

Ərizəçinin “kişi cinsinə mənsub olmaq” və “hərbi xidmət keçmək” tələblərinə cavab verrmədiyinə görə (8-ci maddə ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddənin pozulması) mühafizə xidmətinin əməkdaşı vəzifəsindən azad edilməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatdan sonra daxili məhkəmələr ərizəçini vəzifəsinə bərpa etdilər.

***TÜR / Emel Boyraz (61960/08)***

***Yekun qərar: 02/03/2015***

**Yekun qətnamə: CM/ResDH(2017)147**

---

## 2.10. 1 saylı Protokolun 1-ci maddəsi (Mülkiyyətin müdafiəsi)

Cinayət işinin istintaqı çərçivəsində nəqliyyat vasitəsinin üzərinə həbs qoyulması, onun uzun müddət qeyri-adekvat şəraitdə saxlanması və sonradan mülki məhkəmələr və Konstitusiya Məhkəməsi tərəfindən ərizəçinin vurulmuş zərərin ödənilməsi barədə tələbinin rədd edilməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda məhkəmə ərizəçinin varisinə nəqliyyat vasitəsinə görə kompensasiya (təxminən 20.000 avro), habelə məhkəmə xərclərinin və digər məsrəflərin əvəzinin (642 avro) ödənilməsini təyin etdi.

***XOR / Vuković (47880/14)***

***Yekun qərar: 15/11/2018***

**Yekun qətnamə: CM/ResDH(2022)27**

---

Ərizəçilərin kompensasiya tələblərinə məhkəmələrin baxmaqdan imtina etməsi ilə bağlı işlərdə mülki icraatın bərpa olunması daxili qanunvericiliyə əsasən mümkün olmadığı hallarda zərər Avropa Məhkəməsinin təyin etdiyi ədalətli təzminatın ödənilməsi yolu ilə tam ödənildi.

***YUN / Moustakidis (58999/13)***

***Yekun qərar: 27/01/2020***

***YUN / Alfa Glass Anonymi Emboriki Etairia Yalopinakon (74515/13)***

***Yekun qərar: 31/05/2021***

**Yekun qətnamə: CM/Res DH(2022)97**

Antik silah kolleksiyasının qeyri-mütənasib şəkildə müsadirə edilməsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr bu kolleksiyanın müsadirə edilməsi haqqında qərarı ləğv etdilər və silahlar ərizəçiyə qaytarıldı.

***POL / Waldemar Nowakowski (55167/11)***

*Yekun qərar: 17/12/2012*

**Yekun qətnamə: CM/ResDH(2015)165**

---

Qaçaqmalçılıq yolu ilə əldə edilmiş pulun qanunsuz müsadirəsi ilə bağlı iş üzrə bərpa olunmuş icraatda daxili məhkəmələr ərizəçiyə müsadirə olunmuş məbləğlərə bərabər məbləğin ödənilməsini qərara aldılar.

***RUS / Baklanov (68443/01)***

*Yekun qərar: 30/11/2005*

**Yekun qətnamə: CM/ResDH(2011)301**

## İşlərin siyahısı

*AVT / Pfeifer........................................................ 3*
*BOL / Paraskeva Todorova................................ 11*
*BOL / Petyo Popov ............................................. 4*
*BVH / Maktouf və Damjanović.............................. 7*
*XOR / Xorvatiya Qolf Federasiyası..................... 10*
*XOR / Erkapić......................................................... 6*
*XOR / Lesjak........................................................ 6*
*XOR / Vuković...................................................... 11*
*İSP / Barberà, Messegué və Jabardo ................... 7*
*İSP / Del Río Prada .............................................. 3*
*EST / Martin ........................................................ 3*
*FİN / M.P............................................................ 4*
*FRA / Eon ........................................................... 4*
*ALM / M. group.................................................... 8*
*YUN / Alfa Glass Anonymi Emboriki Etairia Yalopinakon.................................................. 11*
*YUN / Manoussakis və başqaları ......................... 9*
*YUN / Moustakidis ....................................... 5, 11*
*YUN / Serif .......................................................... 9*
*YUN / Agga № 2.................................................. 9*
*MAC / Uj ............................................................. 9*
*MAC / Vajnai........................................................ 4*
*İSL / Guðmundur Andri Ástráðsson...................... 3*
*İTA / Bracci......................................................... 3*
*LİT / Birutis və başqaları...................................... 4*
*LİT / Daktaras...................................................... 7*
*MKD / Radko & Paunkovski vətəndaş assosiasiyası ................................................ 10*
*MKD / Mitrov ...................................................... 4*
*MLT / San Leonard Band Club ............................. 7*
*MON / Sabanovic ................................................ 9*
*NOR / TV Vest As və Rogaland Pensjonistparti ..5*
*NOR / Walston.....................................................5*
*POL / Waldemar Nowakowski ...........................12*
*PRT / L.P. və Carvalho .........................................4*
*PRT / Moreira Ferreira ....................................3, 4*
*PRT / Paixão Moreira Sá Fernandes .....................4*
*RUM / Bucur və Toma..........................................3*
*RUM / Constantin və Stoian............................4, 7*
*RUM / Convertito və başqaları.............................8*
*RUM / Dalban və 4 digər iş ............................ 5, 10*
*RUM / Dragotoniu və Militaru-Pidhorni...............8*
*RUM / Reiner və başqaları ...................................7*
*RUS / Baklanov..................................................12*
*RUS / Bykov .........................................................6*
*RUS / Rakevich qrupu .........................................8*
*RUS / Rusiya Respublikaçılar Partiyası...............10*
*SER / Milojević ..................................................... 8*
*SER / Mitrovic......................................................6*
*İSVR / A.A ...........................................................6*
*İSVR / Di Trizio ..................................................11*
*İSVR / Perinçek ....................................................4*
*İSVR / Verein gegen Tierfabriken (VgT) (№ 2) 5, 10*
*SVN / Ališić və başqaları .................................... 5*
*SVN / Gaspari ................................................4, 5*
*TÜR / Ahmet Arslan və başqaları .........................4*
*TÜR / Emel Boyraz .............................................11*
*TÜR / Göç ...........................................................3*
*TÜR / Öcalan .......................................................3*
*UKR / Garnaga ....................................................8*
*UKR / Grimkovskaya............................................8*
*UKR / Saviny........................................................9*